**Yusif QAZIYEV**
*AMEA-nın Bakıxanov ad. Tarix İnstitutunun elmi işçisi,
əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru*

# AZƏRBAYCANDA MƏKTƏB KİTABXANALARININ İNKİŞAF TARİXİNDƏN(1971-1975-ci illər)

***Açar sözlər:*** *kitab, kitabxana, mütaliə, qərar, fond, əsasnamə*
***Ключевые слова:*** *книга, библиотеки, чтение, разрешение, акции, правила*
***Key words:*** *book, library, reading, resolution, stock, regulations*

*Məqalə "Sosializm quruculuğunun IX beşilliyində (1971-1975-ci illər) məktəb kitabxanaları yeni yüksəlişdə" adlanır.Məktəb kitabxanasının məktəb pedaqoji kollektivinin əlbir işi sayəsində məktəb kitabxanalarında fəal şagird kollektivi yaradılmışdır. Onların təşəbbüsü ilə görüşlər, şəhərciklər, oxucu konfransları, kitab müzakirələri və sair görülən işlər şagirdlərin bilik və zehninin zənginləşdirmişdir.*

Sov. İKP MK-nın "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" 1974-cü ilin may ayında qəbul etdiyi qərarın ölkədə kitabxana işində böyük dönüş yaratdı. Qərarda deyilirdi: "Kitabxanalar Kommunist Partiyasının və Sovet dövlətinin siyasətini fəal təbliğ edir, sovet adamlarının kommunist tərbiyəsində, onların mədəni və elmi-texniki səviyyəsinin yüksəldilməsində partiya təşkilatlarına böyük yardım göstərirlər. Elmin nailiyyətlərini və qabaqcıl təcrübəni təbliğ etmək, elmi və istehsalat işçilərinə məlumat-biblioqrafiya xidməti göstərmək sahəsində elmi, texniki, xüsusi və kütləvi kitabxanaların fəaliyyəti genişlənmişdir" (1).

Bu baxımdan ölkədə son illərdə bütün növ kitabxanalar kütləvi, xüsusi, məktəb və sair kitabxanalar və onların kitab fondu artmışdır. 1974-cü ildə Sovet İttifaqında 3.3 milyard nüsxə kitab fonduna malik 360 min kitabxana vardır ki, onlar da 180 milyondan artıq oxucuya xidmət edir. Bu kitabxanaların xeyli hissəsi məktəb kitabxanaları təşkil edir, kütləvi və xüsusi kitabxanalarla yanaşı məktəb kitabxanalarının da şəbəkəsi genişlənir, kitab fondu çoxalır, oxucularının sayı durmadan artır.

Respublikanın öz işini yaxşı quran, şagirdlərə, habelə müəllimlərə nümunəvi xidmət göstərən, kitabı oxucular arasında bacarıqla təbliğ edən məktəb kitabxanaları az deyildir. Bu kitabxanalarda şagirdlərin və pedaqoji kollektivlərin dərin hörmətini və rəğbətini qazanmış kitabxana işçiləri çalışırlar.

Bakıdakı 190, 199, 187 saylı Lənkəran 3 saylı, Ağdam şəhərində 1 saylı məktəblərin kitabxanaları bu cəhətdən diqqətə layiqdir.



187 saylı məktəbin kitabxanaçısı T.Zeynalova ədəbiyyat müəllimləri ilə müntəzəm əlaqə saxlayır: kitab müzakirələri, konfranslar, disputlar keçirirdi.

Bu işlərdə kitabxananın divar qəzeti, tarixi günlərə həsr edilmiş bülletenlər, sərgilər başlıca rol oynayır və onlar uşaqlarda kitaba həvəs və maraq oyadırdı, onlar bilik qazanmağa, öyrənməyə istiqamətlənirdilər.

Bununla yanaşı qeyd edilən dövrdə kitabların təmir edilməsi, yeni daxil olmuş ədəbiyyatın şöbələr üzrə yerləşdirilməsi, uçota alınması və s. işlərə cəlb etmək sahəsində məktəb kitabxanalarının apardıqları iş xüsusi diqqətə layiq idi.

Lakin məktəb kitabxanalarının heç də hamısı onların qarşısında qoyulmuş vəzifənin öhdəsindən gələ bilmirdilər: bir çoxları öz işlərini şagirdlərə kitab paylamaqla bitmiş hesab edirdilər, kitabları hara olsa yığırdılar, istənilən kitabı tapmaqda çətinlik çəkirdilər; bir çox məktəb kitabxanası üçün lazımi otaq ayrılmadığından onlar ya arakəsmədə, ya da uyğunlaşdırılmamış heç bir şəraiti olmayan otaqlarda yerləşirdi, belə halda kitab mübadiləsi çox çətin idi.

Bu çətinliklərin aradan qaldırılması üçün müxtəlif tövsiyə və təkliflər edilirdi. Onlardan biri kitabxanaçılıq işinin sirlərini şagirdlərə öyrətməyin də çox böyük əhəmiyyəti vardır.

Bu zaman şagirdlər həm kitabdan istifadə etmək vərdişlərinə yiyələnir, həm də kitab seçmək, saxlamaq qaydalarını mənimsəyir, kitabxanaçılıq-biblioqrafiya bilikləri qazanırlar" - deyilirdi (1).

Baş vermiş pozuntu və nöqsanlara dair məktəb və müəllimlərin elmi-pedaqoji və metodik ədəbiyyatla təmin olunması işini kökündən yaxşılaşdırmaq üçün, məktəb kitabxanalarında elmi-pedaqoji və metodik ədəbiyyatlardan kitabxana fondu yaradılması haqqında MN əmr verdi. Əmrdə deyilirdi:

1. Naxçıvan MSSR Marif Naziri, DQMV, XMŞ, Bakı ŞXMŞ və bütün rayon (şəhər) XMŞ müdirləri: Məktəb kitabxanalarında elmi-pedaqoji və metodik ədəbiyyat fondunun yaradılmasını əsas vəzifə hesab etsinlər və bunun üçün lazımı tədbirləri həyata keçirsinlər.

Marksizm-leninizm klassiklərinin əsərləri, Sov.İKP MK və Sovet dövləti sənədləri, məşhur sovet pedaqoqlarının əsərləri SSRİ Maarif Nazirliyinin Azərbaycan SSR Maarif Nazirliyinin əsas normativ və metodik sənədlər məcmuələri, komsomol və pioner işçilərinə aid sənəd və materiallar, tədris proqramları, dərslik və vəsaitlər komplekti fakültativ məşğələlər daxil olmaqla tədris materiallarına aid metodik ədəbiyyatlar, həmçinin sinifdən və məktəbdənkənar işlərə dair proqram və metodik ədəbiyyatlar, məktəb və müəllimlər üçün abunəli ədəbiyyat seriyası, kommunist tərbiyəsi və təhsilin aktual məsələlərinə dair pedaqoji-metodik jurnallar həmin fonda daxil edilməlidir.

2. Kitabxana fondunun yaradılması xalq maarifinin sifarişi ilə məktəb büdcəsində nəzərdə tutulmuş vəsait hesabına kitab ticarəti təşkilatları və kitab kollektoru vasitəsi ilə həyata keçirilsin.

3. Məktəb rəhbərlərinə tövsiyə edilsin ki, məktəb kitabxanalarında göstərilən fondun elmi-pedaqoji və metodik ədəbiyyatla zənginləşdirilməsi üçün hamı təşkilatların vəsaitindən istifadə etsinlər. Elmi-pedaqoji, metodik və dövri mətbuatın saxlanması, istifadə edilməsi ümumi qayda ilə məktəb kitabxanalarının Əsasnaməsinə uyğun aparılsın (2).



Бакыдакы 176 нөмрәли орта мәктәбдә Азәрбајҹан ССР әмәкдар артисти Һүсејнага Садыговла шакирдләрин көрүшү кечирилмиш дир. Фото В. Тағыјевиндир.

*"Azərbaycan müəllimi" 27 noyabr 1974-cü il*

Lakin Azərbaycan SSR Maarif Nazirinin bu əmri bir çox məktəblərdə şəraitin olmaması, məktəb direktorlarının məktəb kitabxana işinə laqeyd münasibət bəsləməsi ucbatında hələ də nöqsanlar davam etmişdir. O zamankı cari mətbuat səhifələrində yazılırdı ki, Göygöl (Xanlar) şəhərindəki 5 saylı məktəbin kitabxanası yoxlanılarkən kitabxanaçı işdə olmamışdır.

Kitabxanaçı məktəbə çağırılmış, ona bildirmişlər ki, kitabxana işi ilə tanış olmaq istəyirlər. Kitabxanaçı gülərək cavab vermişdir: "Kitabxana nədir? Kitablar dəhlizdəki şkaflardadır". Buradan həmin kitabxananın işinin nə vəziyyətdə olduğu məlumdur. Beləliklə məktəbin 350 nəfər şagirdi və 30 nəfər müəllimi kitabxana fəaliyyətindən məhrum edilmişdir. Bununla yanaşı Göygöl rayonunun Üçtəpə kənd orta məktəbinin, 3 saylı şəhər orta məktəbinin kitabxanalarında da görülən işlər günün tələbləri səviyyəsində olmamışdır. Rayonun 45 məktəbində kitabxanaçıların yarısından çoxunun kitabxanaçılıq təhsili olmamışdır (3).

Lakin bununla yanaşı 70-ci illərdə qabaqcıl məktəb kitabxanaçıları da az olmamışdır. Belə bir kitabxanaçılardan dövri mətbuatda Vorovski qəsəbəsində 30 saylı məktəbin kitabxanaçısı Tahirənin yaxşı işindən danışılırdı.



O, burada az vaxt içərisində kitabxanada səliqə-sahman düzəltmiş, kitab fondunu az müddət içərisində 2.500-dən 8.550-yə (1976) çatdırmışdır. Həmçinin o, dərslik fondunu da ayırd etmişdir. Kitabxanaçı tez-tez yazıçılarla əmək qəhrəmanları, elm xadimləri ilə görüşlər təşkil etmiş, şagirdlərin fəallığı ilə müxtəlif stendlər düzəltmiş, Azərbaycanın görkəmli yazıçılarının həyat və yaradıcılığına aid foto-montajlar tərtib etmişdir. O, işini günün tələbləri səviyyəsində qurmuşdur (4).

Bakının 109 saylı məktəb kitabxanası yuxarıda qeyd edilən kitabxanalardan heç də geridə qalmırdı. Orada da müxtəlif məzmunlu tədbirlər şagird mütaliəsinin formalaşmasına, təlim keyfiyyətinin yüksəlməsinə xidmət edirdi. Məsələn, ("Azərbaycan müəllimi" qəzetinin 6 may 1977-ci il № 38 sayında, səh.4) təşkil edilmiş bir poeziya axşamına Nəriman Həsənzadə, Tofiq Mütəllibov, Əbülfəz Naxçıvanlı və Dilqəm dəvət olunmuşdur. Şairlər yaradıcılıq planlarından danışmış və tədbir üçün məktəbin pedaqoji kollektivinə minnətdarlığını bildirmişlər.

Bu dövrdə mənbələrin birində deyilirdi ki, kitab gənc nəslin tərbiyə edilməsində xüsusi əhəmiyyət kəsb edir. Gənc nəslin həyatında misilsiz rol oynayan kitab bir xəzinədirsə, bu xəzinənin məkanı-kitabxanadır. Şagirdlərin sinifdə aldıqları biliyin möhkəmlənməsində, oxu mədəniyyətinin yüksəlməsində məktəb kitabxanası böyük rol oynayır. "Təlim-tərbiyə işində məktəb kitabxanasının rolu" mövzusu üzrə keçirilmiş elmi-praktik konfrans yuxarıda deyilən müddəanı təsdiq edirdi.

1948-ci ildə təşkil olunmuş bu kitabxana əvvəllər kiçik, darısqal bir otaqda yerləşirdi. Hazırda bu kitabxana 9.391(1000-i rus dilində) nüsxə kitab fonduna və 45 nəfərlik oxucu zalı olan qiraətxanaya malikdir. Bu kitabxana 1955-ci ildən aldığı dövrü mətbuat (qəzet və jurnallar) kitab fonduna daxil olub saxlanılır. Hər il kitabxana 65-68 nüsxə qəzet və jurnallara abunə yazılır. Kitabxananın 960 oxucusu vardır. Onlardan 45 nəfəri müəllim, 29 nəfəri isə texniki işçi və valideyndir.

Kitabxana iş planını tərtib edərkən şagirdlərin yaş və bilik səviyyələrinə uyğun olaraq onları maraqlandıran tədbirlərin keçirilməsini nəzərə alır.

Kitabxananın oxucuları məktəbin həyata keçirdiyi tədbirlərdə-səhərciklər, ucadan oxu, ədəbi-bədii gecələr, kitab müzakirələri, disputlar, kitab icmalları, oxucu konfransları, təbiət hadisələrinə dair şəkilli kitabların ifadəli qiraəti, poeziya gecələri, məktəbin radio qovşağı vasitəli təşkil edilmiş rəngarəng verilişlər, teatr tamaşaları və kino-filmlərə kollektiv baxışlar, ekskursiyaların, sonra onların bəzilərinin müzakirələrinin təşkili, radio, televiziya, qəzet və jurnal redaksiyaları işçiləri ilə görüşlər, bəstəkar, şair, yazıçı, sənətşünas, görkəmli səhnə ustaları, əmək və Vətən müharibəsi qəhrəmanlarının özləri və ailələri ilə, qocaman inqilabçılarla keçirilən görüşlərdə fəal iştirak edirlər.

Bununla yanaşı kitabxanada 1959-cu ildən fəaliyyət göstərən "Gənc həvəskarlar" klubunun işi diqqətə layiq olmuşdur.

"Gənc həvəskarlar" klubunda bədii əsərlərlə yanaşı musiqi və təsviri incəsənətin bəzi janrları haqqında da məlumat verilirdi. Məsələn, "Melodiya", "Rapsodiya", "Opera", "Operetta", "Təsnif", "Rəng" haqqında məlumatlar verilirdi. Yeri gəldikcə klub üzvləri ilə teatr tamaşası və konsert verilir, filmlər göstərilir. Sonra həmin əsərlərin müzakirəsi keçirilirdi.

Kitabxanada təkcə ədəbiyyat və incəsənət xadimləri ilə deyil, eyni zamanda tarix, fizika, riyaziyyat, kimya, təbiət alimləri, görkəmli idmançılarla görüşlər keçirilmişdir. Məsələn, bəstəkarlardan Ə.Bədəlbəyli, S.Rüstəmov, S.Ələsgərov, sənətşünas M.Nəcəfov, M. Mansurov, artistlərdən L.Abdullayev, B.Səfəroğlu, N.Zeynalova, S.Qədimova, idman ustası, T.Bəhrəmov, texniki elmlər doktoru prof. S.Mehdiyev, prof. C.Hüseynov, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü M.Cavadov, EA-nın həqiqi üzvü Ə.Hüseynov, prof. V.Tutayuk və başqaları ilə keçirilən görüşlər də oxucuların böyük rəğbətini qazanmışdır.

Kitabxanada həmçinin M.Seyidzadə, T.Mütəllimov və X.A.Əlibəyli ilə görüşş və M.Müşvüqə, S.Vurğuna, M.Rəhimə, M.P.Vaqiflə, Ə.Cəmilə, N.Xəzriyə, S.Rüstəmə, A.Puşkinə, M.Y.Yermontova, V.Mayakovsekiyə və başqalarına həsr edilmiş poeziya gecələri keçirilmişdir.

Məktəbdə uşaq kitabları həftəsi bir qayda olaraq bahar bayramında keçirilir. Burada əsas məqsəd şagirdlərin diqqətini ədəbiyyatın ayrı-ayrı janrlarına cəlb etmək, onları sinifdənxaric mütaliəyə alışdırmaq, məktəbdə və məktəbdənxaric yerlərdə kitab üzərində işin müxtəlif forma və növlərini tətbiq etməkdən ibarətdir.

Uşaq kitabları həftəsi bayramında şagirdlər oxuduqları kitablar haqqında qısa rəylər söyləyir, şeirlərdən paçalar deyir, kiçik səhnəciklər göstərilir, ədəbi-bədii viktorinalar düzəldilirdi.

Kitabxananın təşkil etdiyi ekskursiyalar-oxunan kitabla əlaqədar olaraq teatra, kino-filmlərə tamaşa etməklə, əsərin başlıca surətlərini, onların yaşadıqları dövr və şəraiti aydın təsəvvür etməklə şagirdlərə kömək edir.

Kitabxana öz işini daha canlı qurmaq üçün mədəniyyət ocaqları, mərkəzi kitabxanalar ilə yaxından əlaqə saxlamışdır. Məsələn, M.F.Axundov adına respublika kitabxanası F.Köçərli adına uşaq kitabxanası, digər uşaq və mərkəzi kitabxanalar, klub və saraylarla və s. əlaqə saxlamış tədbirlər həyata keçirmişdir (5).

IX beşilliyin son ilində şagirdlərin mütaliəsinin vahid iş sistemi əsasında aparılmasında 1975-ci ildə SSRİ Maarif Nazirliyi tərəfindən təsdiq olunmuş "Məktəb kitabxanası haqqında nümunəvi Əsasnamə" başlıca proqram idi. Bu əsasnamə şagirdlərin kitabxana-biblioqrafiya işini öyrənmələrinə geniş imkanlar açmışdır. Həmin əsasnamə də məktəb kitabxanaçılarının pedaqoji



kollektivlə birlikdə şagirdlərə kitabxana-biblioqrafiya işini öyrətməyi, onlarda kitabla mütaliə vərdişi aşılamağı tam aydınlaşdırırdı.

Artıq ölkənin bir çox ümumtəhsil məktəblərində "Mütaliə mədəniyyətinin əsasları" bir çox məktəblərdə fakültativ fənn kimi tədris edilirdi. RSFSR Dövlət Respublika Uşaq Kitabxanası, SSRİ Pedaqoji Elmlər Akademiyasının Bədən Tərbiyə Elmi-Tədqiqat İnstitutunun alimləri ilə birlikdə IV-VIII sinif şagirdlərində mütaliə mədəniyyətinin formalaşması və kitabxana-biblioqrafiya işinin öyrənilməsi üzrə proqram hazırlandı.

Yeri gəlmişkən, Latviya respublikasının ümumtəhsil məktəbləri bu sahədə daha irəli getmişdir. Burada 1976-1977-ci dərs ilindən kitabxana dərsləri icbari fənn kimi 1-ci sinifdən 8-ci sinfə qədər respublikanın bütün məktəblərində tədris edilməyə başlamışdır. Bu sahədə kitabxana-biblioqrafiya işinin təbliği ilə əlaqədar çox az iş görülmüşdür (6).

Yuxarıda qeyd edilən qərara uyğun olaraq Azərbaycan SSR-nin məktəb kitabxanalarında işlərin yenidən qurulmasına ciddi fikir verilirdi. Məsələn, Bakının Nərimanov rayonunun 82 saylı məktəbinin kitabxanasında ürəkaçan işlər az olmamışdır. 7.503 kitab fonduna və 800-dən çox oxucusu olan bu kitabxana Sov. İKP XXV və Azərbaycan KP XXIX qurultaylarının materialları və məktəb haqqında yeni qərarla əlaqədar maraqlı tədbirlər həyata keçirmişdir. Kitabxanada "Partiyanın planı xalqın planıdır", "Azərbaycan X beşillikdə", "SSRİ-də xalq maarifinin inkişaf perspektivləri", "Yeni Konstitusiya fəaliyyət proqramımızdır" və s. stendlər və kitabxanada keçirilən tədbirlərə dair albomlar, yazıçılar şairlərlə görüşlər və onlarla söhbətlər, əmək mövzusuna dair viktorinalar çox maraqlı olmuşdur (7).

Bakının Badamdar qəsəbəsində 236 saylı məktəbin kitabxanasının oxucularla apardığı işlər digər məktəb kitabxanalarının işindən fərqlənirdi. Burada əsas işlər dərs məşğələsi qurtardıqdan sonra başlayırdı. şagirdlər dərsdən sonra kitabxanaya gəlirdilər, ədəbiyyat müəllimlərinin tövsiyə etdiyi ədəbiyyatı mütaliə edib, növbəti dərslərinə hazırlaşırdılar.

Məktəb kitabxanasının 470 nəfər oxucusu var idi. Kitabxanada "Kitabları qoruyun" devizi altında əməliyyat keçirilirdi. Əməliyyat prosesində sıradan çıxmış kitablar təmir edilirdi:

Şagirdlər kitabxanadakı rus və Azərbaycan, xarici ölkə ədəbiyyatı nümunələri ilə yanaşı, dərslik fondu, ensiklopedik lüğətlər, yeni qəzet və jurnallardan da səmərəli istifadə etmişlər. Kitabxananın abunə olduğu "Konstruktor modelist", "Texnika molodyoji", "Yunost", "Nauka i jizn", "Kimya i jizn" jurnallarını həvəslə oxumuşlar.

Şagirdlər oxuduqları maraqlı material və məqalələr üzrə məruzələr hazırlayıb öz yoldaşları qarşısında çıxış etmişlər. Kitabxananın xətti ilə müntəzəm olaraq mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. oxucu konfransları, kitab müzakirələri, səhərciklər və görüşlərdə şagirdlər fəal iştirak etmişlər (8).

XX əsrin 70-ci illərində məktəb kitabxanalarının üzərinə böyük vəzifələr düşürdü. Mənbələrin birində deyilirdi: "Kommunizm quruculuğunun indiki mərhələsində məktəblərimizin qarşısında çox böyük və əzəmətli vəzifələr durur. Partiyamızın XXIV qurultayının tarixi sənədlərində, eləcə də Sov. İKp MK və SSRİ Nazirlər Sovetinin "Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəblərini daha da inkişaf etdirmək haqqında" və "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərarlarında özünün geniş və dəqiq ifadəsini əks etdirən həmin vəzifələrin yalnız təlim-tərbiyənin əsas təşkilat forması olan dərsdə, tədris prosesində müvəffəqiyyətli həllinə nail olmaq mümkün deyildir. Bunun üçün mühüm əhəmiyyət kəsb edən sinifdənkənar işlərə də diqqəti artırmaq tələb olunur.

Sinifdənkənar işlər şagirdlərdə psixi fəaliyyəti duymaq, müşahidə aparmaq, qavramaq və s. kimi keyfiyyətləri tərbiyə etməklə bərabər, onlarda hökm, qərar, sübut, nəticə çıxarmaq kimi məntiqi prosesləri də inkişaf etdirir, qabil və istedadlı uşaqları üzə çıxarır, məktəbliləri ictimai-siyasi, mədəni-kütləvi tədbirlərin təşəbbüskarı və təşkilatçısı olmağa hazırlayır, müəllimlərin sinif rəhbərləri, pioner və komsomol təşkilatları, habelə valideynlərlə möhkəm əlaqə saxlamasına, onlarla birlikdə fəaliyyət göstərməsinə geniş imkan yaradır (9).

Sinifdənxaric işlərə aid edilirdi: fənn kabinetləri və dərnəklərin təşkili, radio və televiziyadan, habelə digər texniki vasitələrindən istifadə, müxtəlif klub və muzeylərin, lektoriya və cəmiyyətlərin yaradılması, disput və müzakirələrin, viktorina və oyunların, müsabiqə və yarışların, gəzinti və ekskursiyaların keçirilməsi, bülleten və divar qəzetlərin, yazılı və şifahi jurnalların buraxılması və s.

Göründüyü kimi sadalanan işlər içərisində məktəb kitabxanasının qarşısında həm öz funksiyası üzərinə düşən işlərdə, həm də kitabla əlaqədar olaraq sadalanan digər sinifdənkənar işlərdə də məsul olmaq vəzifəsi qoyulmuşdur.

Bu baxımdan Bakının 30, 80, 145, 167 saylı, Gəncənin 4 və 18 saylı, Naxçıvanın 1 və 5 saylı, Şəkinin Oxud, Şamaxının Nəriman kənd, Culfanın Noraşen, Martuninin Qışı kənd məktəblərində və bir çox digər tədris müəssisələrində qazanılan müvəffəqiyyətlərin, əldə edilən nailiyyətlərin bir səbəbi də məhz burada təlim prosesi ilə yanaşı, sinifdənkənar tədbirlərə də məsuliyyət və tələbkarlıqla yanaşılması, onun imkanlarından səmərəli istifadə edilməsi ilə izah olunurdu.

Lakin bütün fəaliyyətlərinin məcburi dərs məşğələləri ilə məhdudlaşdıran və sinifdənxaric tədbirləri formal xarakterli aparan məktəblər də az deyildir. Belə formal xarakterli tədbirlərə məktəblilər məcburi dəvət olunurdu və onlar həmin tədbirlərin təşkilatçısı fəal iştirakçısı olmadığından bu və ya digər mövzunun, söhbətin adi dinləyicisinə, yarışın sadəcə tamaşaçısına çevrilir-



dilər. Buna misal olaraq Xaçmaz rayonundakı Uzunoba Əhmədova, Qaracəlilli, Qurtqaşen rayonundakı Mirzəbəyli, Dəvəçi rayonundakı Günəşli kənd məktəblərində və bir sıra məktəblərdə təsadüfən aparılan sinifdənkənar işləri belələrinə misal göstərmək olar.

### ƏDƏBİYYAT


1. Məktəb kitabxanası (baş məqalə) // Azərbaycan məktəbi. 1974-cü il, №8, səh.3-7
2. Azərbaycan SSR Maarif nazirliyində. "Azərbaycan müəllmi" qəz., 29 oktyabr 1975-ci il, №87.
3. Tağıyev M. Kitabxana işinə nəzarəti gücləndirməli. "Azərbaycam müəllimi" qəz., 19 mart 1976-cı il, №23, səh.2
4. Novruzov M. Məktəb kitabxanaçısı. "Azərbaycan müəllimi" qəz., 9 iyul, №55, səh.2.
5. Naxı Günəşli. Məktəb kitabxanası və təlim-tərbiyə // Azərbaycan məktəbi. 1970, №5, səh.28-32.
6. Daşadzadə Ş. Tələbə və kitabxana. "Azərbaycan gəncləri" qəz. 7 yanvar 1978-ci il, №3, səh.3.
7. İmanov Ə. Nümunəvi kitabxana. "Azərbaycan müəllimi" qəz., 7 iyun, №46
8. Əlizadə L. Məktəb kitabxanasında. "Azərbaycan müəllimi"qəz. 4 yanvar 1978, №2, səh.2.
9. Sinifdənkənar işlər (Baş məqalə). "Azərbaycan müəllimi" qəz., 21 noyabr 1975-ci il, №94, səh.1


**Ю.Газыйев**

## ИЗ ИСТОРИЕ ШКОЛЬНЫХБИБЛИОТЕКВАЗЕРБАЙДЖАНА (1971-1975 ГОДА)

### РЕЗЮМЕ

Статья называется: «Школьные библиотеки в новом уровне возвышения в период IX-ой пятилетки строительства социализма(1971-1975 года)». В школьных библиотеках создан активный ученический коллектив, за счет солидарности педагогического коллектива школьных библиотек. Проведенная по их инициативе работа по проведению утренников, встреч, читательских конференций, книжных обсуждений- обогащали знания и ум учеников.

**Y.Gaziyev**

## FROM THE HİSTORY OF SCHOOL LİBRARİES İN AZERBAİJAN (1971-1975 YEARS)

### SUMMARY

The article is called "School libraries in new progress in the period of IX five years of socialism development (1971-1975)".Thanks to joint work of school teachers' staff of school library an active pupil team was formed at school libraries. By their enterprise meetings, campuses, readers' conferences, book discussions, and other works enriched the knowledge and intellect of the pupils.